Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2020, **s. 44-47**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2020, **с. 44-47**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2020, **pp. 44-47**

UOT 78 (793.2.378)

T.Ə.Məmmədova
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş.,Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: tehmine91219@gmail.com

MUSİQİ – TƏRBİYƏ İŞİNİN ƏSAS AMİLİ KİMİ

Açar sözlər: *tədris, tərbiyə, vəhdət, müəllim, musiqi*

Musiqi aləmində ifanın tədrisi mürəkkəb və çoxsahəli prosesdir. O, təkcə şagirdlərin bir musiqi alətində çalmaq deyil, həmçinin ümumi musiqi inkişafını da özündə cəmləşdirir. Geniş tərbiyə işi də onun vacib bir elementidir. Öz müxtəlifliyi ilə bərabər o, şagirdin dünyagörüşünün və mənəviyyatının, xarakterinin, estetik zövq və musiqiyə məhəbbətin, marağın və nəhayət, sağlamlıq və fiziki inkişafının tərbiyə edilməsi kimi keyfiyyətləri özündə əks etdirir. Məktəblilərin musiqi tərbiyəsində ilk dəfə innovativ musiqi dərslərinin rolu araşdırılıb.

Т.А.Мамедова

МУЗЫКА КАК ОСНОВНОЙ ФАКТОР ВОСПИТАТЕЛЬНОЙ РАБОТЫ

Ключевые слова: *обучение, воспитание, единство, преподаватель, музыка*

В музыкальном мире обучение исполнению – сложный и разносторонний процесс. Оно объединяет в себе не только исполнение учащимися на каком-либо музыкальном инструменте, но и общее музыкальное развитие. Широкая воспитательная работа является важным его элементом. Наряду со своей разносторонностью, оно отражает в себе такие качества, как воспитание мировоззрения и морального состояния, характера, эстетического вкуса учащегося, его любви, интереса к музыке и наконец, здоровья и физического развития. Впервые исследована роль уроков музыки в музыкальном воспитании учащихся.

T.A.Mamedova

MUSIC AS A KEY FACTOR IN EDUCATIONAL WORK

Key words: *teaching, education, unity, teacher, music*

Teaching playing music is a complex and multifaceted process. It not only involves students playing a musical instrument, but also the overall development of music. Extensive educational work is also an important element of it. Along with its diversity, it reflects the qualities of the student's worldview and morality, character, aesthetic taste and love to music, interest and, finally, health and physical development. For the first time, the role of music lessons in the musical education of schoolchildren was studied.

Tərbiyə işini tədris prosesinin əlavəsi kimi nəzərdən keçirmək olmaz. O, tədris işiylə vəhdət təşkil edir. Tədrisin tərbiyəvi olmasına can atmaq lazımdır. Bu, metodikanın əsas prinsiplərindən biridir. Tərbiyə işinin əsas hissəsi dərs prosesində həyata keçirilir. Musiqi əsərlərinin bədii dərinliyinə bələd olan təcrübəli, savadlı müəllim onların obrazlarına, bəstəkarın yaradıcılığının ruh aldığı ideallara da toxunacaq. Tərbiyəvi işin əsas forması şagirdlərlə musiqi gecələri və konsertlər keçirtməkdir. Bu, iştirakçıların özlərinə hərtərəfli xeyir gətirir və incəsənətin təbliği üçün böyük əhəmiyyət daşıyır. Konsertlərə, teatrlara, muzeylərə və mədəni-tarixi yerlərə ekskursiyaya getməyi haqlı olaraq tərbiyəvi işin ən yaxşı forması hesab edirlər. Bunları təkcə bütün siniflə deyil, həmçinin ayrı-ayrı şagirdlərlə də tez-tez keçirtmək lazımdır. İncəsənətə xüsusi münasibəti tərbiyə etmək vacib məsələdir: bu şagirdin dünyagörüşünün formalaşmasında böyük rol oynayır. İncəsənətin ictimai rolunu başa düşməkdə şagirdə konsert çıxışları və məktəbdənkənar musiqi işi də kömək göstərir. Şagirdin bədii zövqünün formalaşması məsələsini qarşısına qoyan yaxşı müəllim nəinki incəsənətdəki gözəlliyə reaksiya verir, həmçinin bu gözəlliyin məğzini anlatmağa çalışır. Şagirdi estetik cəhətdən tərbiyələndirmək üçün onun nəzərini ədəbiyyat əsərinə, şəkillərə və heykəllərə cəlb etmək lazımdır. Nahaq yerə List demirdi ki, “Rafael və Mikelancelo mənə Motsartı və Bethoveni başa düşməyə kömək etdilər”.

Musiqiyə uzunmüddətli, dərin maraq oyatmaq – müəllimin əsas işlərindən biridir. Artıq tək bununla şagirdin iş qabiliyyətini qaldırmaq olur. Musiqiyə maraq ifanın bədii tərəfində də özünü göstərir. O, həmin dəqiqə ifadəli, parlaq, dərin məzmunlu olur. İncəsənətin ən çox təsir qüvvəsinə malik olan musiqinin tərbiyə və rolu haqqında filosoflar, alimlər, musiqiçilər və pedaqoqlar çox yazmışlar. 18-ci əsrin böyük bəstəkarı H.Hendel deyirdi: ”Çox təəssüf edərdim ki, musiqim dinləyicilərimi ancaq əyləndirsin, mən onları yaxşı etməyə

çalışmışam".

Musiqinin bir incəsənət nümunəsi kimi şəxsiyyətin formalaşması və hərtərəfli inkişafında böyük rolu vardır. Musiqi dərslərində uşaqların ideya və mənəvi tərbiyəsinin formalaşmasına musiqi əsərlərinin dinlənilməsi, xorla oxumaq, bəstəkarın həyat və yaradıcılığı ilə bağlı söhbətlər, eyni zamanda musiqi oyunları vasitəsilə həyata keçirmək mümkündür. Məktəblilərin ideya və mənəvi tərbiyəsində xorla oxumağın çox böyük əhəmiyyəti vardır. Mahnı öyrədilməsi və vokal-xor vərdişlərinə yiyələnmə prosesinin özü yaxşı uşaq kollektivinin yaranması üçün zəmin yaradır. Məhz xorla məşğələlərdə kollektivçilik, yoldaşlara və onların işdəki zəhmətinə hörmət hissləri formalaşır. Mahnının xorla düzgün səslənməsinin məsuliyyəti kollektivin bütün üzvlərinin üzərinə düşür. Musiqi dərslərində ifaçının, bəstəkarın müəllimin əməyinə hörmət hissi yaratmağın böyük əhəmiyyəti vardır. Uşaqlara aydın olmalıdır ki, incəsənət əsəri heç də asanlıqla yaranmır, onun yaranması üçün bəstəkar illərlə çox böyük zəhmət sərf edir. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, incəsənət nümunələri uşaqların hərtərəfli inkişafına böyük təkan verir. Düzgün təşkil edilmiş musiqi tərbiyəsi nəticəsində yaranmş yaradıcı-emosional əhval-ruhiyyə uşaq həyatının bütün cəhətlərinə təsir edərək onun xarakterində, davranışında və münasibətlərində tamlıq və harmoniklik yaradır. Uşaqlar məktəbə müxtəlif səviyyəli musiqi zövqləri ilə daxil olurlar. Məhz musiqi dəslərində müəllim ondan əvvəl buraxılmış səhvlər aradan qaldırıla bilməli və uşaqların bədii zövqünü düzgün formalaşmasına nail olmalıdır. Uşaqların musiqini qavraması və musiqi zövqü dərsdə musiqi dinləmə və mahnı oxuma prosesində tərbiyə olunur. Musiqi uşaqlarda həyata yaradıcı münasibəti tərbiyə edir, onların yaradıcı qüvvələrini və bacarıqlarını inkişaf etdirir. Bu barədə M.Qorki belə demişdir: " İnsan təbiətcə rəssamdır. O, hər yerdə, bu və ya digər cəhətdən öz həyatına gözəlliyi daxil etməyə çalışır".

Uşaq müəyyən bir tabloya və ya heykəltaraşlıq əsərinə tamaşa edərsə onun məzmununu bütövlükdə və həmin əsərə tamaşa etdiyi vaxtda qavraya bilər. Musiqi əsərini isə tam başa düşə bilmək üçün onu son notlarına qədər dinləmək lazımdır. Musiqi bilavasitə emosionallıqla əlaqədar olduğu üçün təsiri daha genişdir. Beləliklə, musiqi əsərlərinin dinlənilməsinin düzgün təşkili, ifaçılıq prosesi məktəblilərin emosionallığını artırır, əqli cəhətdən inkişafına səbəb olur, fiziki cəhətdən sağlamlığı üçün zəmin yaradır və əməyə, əmək adamlarının işinə hörmət hissi aşılayır. Məktəb uşaqların ideya-siyasi tərbiyəsinin, vətənpərvərlik və beynəlmiləlçilik hisslərinin formalaşmasında da müsbət təsir göstərir.

Məktəblilərin musiqi tərbiyəsində **ilk dəfə** innovativ musiqi dərslərinin rolu araşdırılıb.

ƏDƏBİYYAT

1. Qədimova J.H. Musiqinin tədrisi metodikası. Bakı, 2007
2. Qədimova J.H. Musiqi pedaqogikası: tarixilik və müasirlik. Bakı, 2012
3. Ağayev Ə.Ə. Pedaqoji fikrimiz: dünənimiz, bugünümüz. Bakı, 2000
4. Əhmədov H.M. Azərbayan məktəb və pedaqoji fikrin tarixi. Bakı, 2002
5. Kəngərli T.Q. Musiqi pedaqogikası. Bakı, 2004

Məqalənin redaksiyaya daxil olma tarixi: 23.02.2020
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2020
Məqalənin çapa qəbul olunma tarixi: 18.06.2020
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.